Azərbaycan.- 2021.- 19 mart. S. 8.

# Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının ilk iclası keçirilib






Martın 18-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının ilk iclası keçirilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin VII qurultaydakı çıxışından irəli gələn vəzifələrdən bəhs edib, bu vəzifələrin layiqincə icra edilməsində Veteranlar Şurasının üzvlərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov YAP Veteranlar Şurasının Əsasnaməsinin yaradılmasının, partiyanın yeni proqramına dair təklif və tövsiyələrin işlənib hazırlanmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu diqqətə çatdırıb. Tahir Budaqov daha sonra Veteranlar Şurasının üzvlərini qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək göstərilən yüksək etimada görə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə təşəkkürünü bildirib. YAP-ın VII qurultayında Veteranlar Şurasının yaradılması haqqında qəbul edilmiş qərarı təqdirəlayiq hal hesab edən A.Rəhimzadənin sözlərinə görə, bu qurumun əsas vəzifələrindən biri yaşlı nəsil ilə gənclər arasında əlaqələrin gücləndirilməsidir: “Bizlər 1990-cı illərin əvvəllərində respublikada mövcud olan proseslərin iştirakçıları olmuşuq. O dövrdə respublikada xaos, qeyri-sabitlik hökm sürürdü. Bu vəziyyətdən istifadə edən Ermənistan torpaqlarımızın bir hissəsini işğal etdi. Belə bir şəraitdə sağlam düşüncəli insanlar, ziyalılar dövlətimizi və xalqımızı düşdüyü bu ağır vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyevin xilas edə biləcəyini düşünürdülər. Yeni Azərbaycan Partiyası məhz belə bir şəraitdə yaradıldı. Bütün bu tariximizi isə biz gənc nəslə olduğu kimi çatdırmalıyıq”.

YAP Veteranlar Şurasını sədri bu gün Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti sayəsində xalqımızın qələbə sevincini yaşadığını qeyd edib, bu uğurların davamlı olması üçün hər birimizin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

İclasda daha sonra YAP Veteranlar Şurasının Əsasnaməsinin hazırlanması ilə əlaqədar işçi qrupun yaradılması haqqında qərar qəbul olunub. Həmçinin Yeni Azərbaycan Partiyasının yeni proqramının hazırlanmasında təklif və tövsiyələrin irəli sürülməsi, eləcə də Veteranlar Şurasının iş planının hazırlanması ilə əlaqədar təkliflər müzakirə olunub.

Veteranlar Şurasının üzvlərindən Xeyrəddin Qoca, Südeyif İmamverdiyev, Misir Mərdanov, Şahlar Əsgərov, Tahir Məmmədov, Əli Həsənov və Ədilə Abbasova çıxış edərək müzakirə olunan məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.